## Nizami Qərib

### Göyçəmin

Qonağa can deyib qucaq açardı,
Obası Göyçəmin, eli Göyçəmin.
Min rəngə boyanıb payız fəslində,
Bahar ətirliydi gülü Göyçəmin.

Dağları bir aləm, düzü bir aləm,
Durna bulaqların gözü bir aləm.
Söhbəti bir aləm, sözü bir aləm,
Şirin ləhcəliydi dili Göyçəmin.

Cənnət güşəsiydi, yoxuydu tayı,
Yaradan vermişdi gözəllik payı.
Dərdlərə dərmandı havası, suyu,
Ömrə bərabərdi ili Göyçəmin.

Vüqarlı dağların uca zirvəsi,
Yayırdı yamaca bulud nəfəsi.
*Qərib'ə* nəğməydi quşların səsi,
Sonalar yurduydu gölü Göyçəmin.